# Gürcüstanda yerli seçkilərdə hakim partiya irəlidədir

## Amma ölkənin böyük şəhərlərinə merlərin seçilməsi ikinci tura qalıb



Oktyabrın 2-də Gürcüstanda keçirilmiş yerli idarəetmə orqanlarına seçkilərin ilkin nəticələri məlum olmuşdur. Səslərin yarıdan çoxu hesablandıqdan sonra hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" Partiyası seçkilərdə 47,71 faiz səslə liderlik edir. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyası məlumat verib.

Bildirilir ki, ikinci yerdə 31,37 faiz səs toplayan Nika Meliyanın "Vahid Milli Hərəkat" Partiyası qərarlaşıb. Xatırladaq ki, bu partiyanı seçkilər ərəfəsində həbs olunmuş sabiq prezident Mixeil Saakaşvili yaradıb. Üçüncü yeri 7,1 faiz səslə sabiq baş nazir Georgi Qaxariyanın "Gürcüstan uğrunda" Partiyası tutur.

Həmçinin məlum olmuşdur ki, ölkənin ən iri 5 şəhərinin, o cümlədən paytaxt Tbilisinin merliyinə namizədlərdən heç biri 50 faizdən artıq səs qazana bilmədiyindən ikinci tur keçiriləcək.

Əksər seçki məntəqələrində səsvermə prosesini izləmiş müşahidəçilərin qiymətləndirilməsi müsbət olmuşdur. Bəzi avropalı müşahidəçilər müəyyən pozuntuları qeyd etsələr də, MSK-nın iclaslarının ilk dəfə açıq keçirildiyini və birbaşa yayımda efirə verildiyini, bunun nəticəsində prosesin şəffaflığının artdığını vurğulamışlar.

Ümumilikdə seçkilərdə 50 partiya iştirak etmişdir. 1,81 milyondan çox seçici (51,92 faiz) səs vermişdir.

Bu arada Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bildirmişdir ki, ötən cümə günü Tbilisidə Ukrayna vətəndaşı Mixeil Saakaşvilinin saxlanılması Gürcüstan-Ukrayna münasibətlərinin pisləşməsinə səbəb olmayacaq. Hökumət başçısının dediyinə görə, "həbsxanada özünün düşdüyü ağır vəziyyəti anlayan Saakaşvili indi Kiyevə qaytarılmasını tələb edir. Lakin bu, 6 ildən sonra mümkün ola bilər".

İ.Qaribaşvili keçmiş prezidentin ölkə sərhədini keçməsinin detallarını açıqlamamış, lakin qeyd etmişdir ki, operativ xidmətlər onu tələyə salmışlar. Hökumət başçısı hesab edir ki, M.Saakaşvilinin tutulması ilə böyük bir təxribatın qarşısı alınmışdır. Yaxın vaxtlarda Gürcüstanın hüquq mühafizə orqanları bunun təfərrüatlarını açıqlayacaq.

"Gürcüstanın üçüncü prezidenti Mixeil Saakaşvili heç vaxt əfv olunmayacaq". Bu barədə ölkə Prezidenti Salomi Zurabişvili bildirmişdir. Bununla bağlı o demişdir: "Gürcüstanın sabiq prezidentinin tutulması səhnəsi mənə də xoş təsir bağışlamadı, lakin qanunun aliliyi hər şeydən üstündür".

Xatırladaq ki, oktyabrın 1-də həbs olunmuş Mixeil Saakaşvili Rustavi şəhərindəki 12 saylı həbsxanaya aparılmışdır. Bundan əvvəl siyasətçi bildirirdi ki, yerli idarəetmə orqanlarına seçkilər keçirilən gün Ukraynadan vətənə qayıtmaq niyyətindədir.

Gürcüstan prokurorluğu sabiq prezidenti bir neçə cinayət maddəsi ilə ittiham edir. Onlardan ikisi üzrə M.Saakaşvili artıq mühakimə olunmuş və qiyabi olaraq 6 il həbs cəzasına məhkum edilmişdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 5 oktyabr.- S.11.